## Dövlət Statistika Komitəsində Dünya Bankının nümayəndələri ilə görüş keçirilmişdir.



Martın 16-da Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Dünya Bankının Dövlət İdarəçiliyi üzrə Qlobal Praktika Meneceri cənab Adrian Fozzard, İnformasiya üzrə Aparıcı Mütəxəssis Rameş Siva və Əməliyyatlar üzrə Baş Mütəxəssis Səidə Bağırlı ilə görüşmüşdür.

Görüşün əsas məqsədi Dünya Bankı ilə əməkdaşlıq, əldə olunmuş nəticələr və gələcək fəaliyyət istiqamət-lərinin müzakirəsi olmuşdur.

Komitə sədri nümayəndələri salamlayaraq, Dövlət Statistika Komitəsi ilə Dünya Bankı arasındakı qarşılıqlı əməkdaşlıq münasibətlərindən məmnun olduğunu bildirmiş, birgə həyata keçirilən "Metaməlumatlar Sisteminin Yaradılması Layihəsi" nin uğurla başa çatdığını və növbəti layihələrin milli statistika sisteminin təkmilləşdirilməsində mühüm rol oynayacağını qeyd etmişdir.



Adrian Fozzard Statistika Komitəsi ilə əməkdaşlığın Dünya Bankı üçün prioritet sahə olduğunu vurğulayaraq müvəffəqiyyətlə icra olunmuş layihənin növbəti layihələr üçün möhkəm zəmin yaratdığını qeyd etmişdir.

Görüş zamanı Komitə sədri nümayəndələrə Birləşmiş Millətlər Təşkilatının (BMT) Statistika Komissiyasının 47-ci sessiyasında iştirakı, dayanaqlı inkişaf hədəfləri əsasında statistika sisteminin qarşısında duran vəzifələr, milli statistika sisteminin Avropa standartlarına uyğunlaşdırılması məqsədilə aparılan təkmilləşdirmə prosesi və islahatlar, müvafiq metodologiya və konkret statistik göstəricilər sisteminin yaradılması məqsədilə ilk ölkə olaraq cari ilin yanvar ayında Dövlət Statistika Komitəsində yaradılmış Dayanaqlı inkişaf statistikası şöbəsi haqqında məlumat vermişdir.



Hər iki tərəf növbəti əməkdaşlıq istiqamətlərinin məqsəd və hədəflərinin müəyyənləşdirildiyini, nəzərdə tutulan layihənin tam başa çatdırılmasının məqsədəuyğunluğunu vurğulamışlar.

Rameş Siva perspektivdə nəzərdə tutulmuş layihəyə dair konsepsiya sənədinin hazırlanaraq müzakirə olunmasının vacibliyini qeyd etmişdir.

Sonda Cənab Adrian Fozzard Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova səmimi qəbula görə minnətdarlığını bildirmişdir.